# Liderin nitq üslubunun formalaşmasının psixolinqvistik aspektləri

**Tünzalə Rəcəf qızı Musayeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu*
**E-mail:** tunzala.rm@gmail.com

**Rəyçilər:** f.ü.e.d. Q.N. Vəliyev,
f.ü.f.d. G.Q. Süleymanov

**Açar sözlər:** nitq, nitq üslubu, ünsiyyət, lider, psixolinqvistika
**Ключевые слова:** речь, стиль речи, общение, лидер, психолингвистика
**Key words:** speech, speech, style communication, leadership, psycholinguistics

Tarixən insanların dil vasitəsilə ünsiyyət forması meydana gəlmişdir. Nəticədə dildən istifadə edərək öz fikirlərini, istək və arzularını bir-birinə çatdırmaq imkanına malik olmuşlar. Bu proses nitq prosesi adlandırılmışdır. Nitq insanlar arasında dil vasitəsilə həyata keçirilən ünsiyyət prosesidir. Dil verbal ünsiyyət üçün vasitə, nitq isə həmin prosesin özü hesab olunur. İnsanlar dilə yiyələnməklə onun vasitəsilə ünsiyyət saxlaya bilirlər. Başqa sözlə, onlar nitqə yiyələnmiş olurlar. Dil və nitq eyni bir hadisənin nitq fəaliyyətinin bir-biri ilə qarşılıqlı əlaqədə olan iki cəhətidir. Dil həcm etibarı ilə nitqdən çox genişdir. Çünki dil ümumxalqa məxsusdur, nitq isə ayrıca bir fərdə aiddir. Nitqin aydınlığı və təsirli ola bilməsi üçün dil, öz növbəsində dilin mövcudluğu üçün isə – nitq zəruridir.

Nitq – şəxsin müəyyən kollektiv üzvləri ilə qarşılıqı əlaqə saxlamaq məqsədilə dildən istifadə etmək fəaliyyətidir. Nitqin əsas məqsədi informasiya (məlumat, xəbər) mübadiləsi yaratmaqla informasiyanın ötürülməsi və qəbul edilməsidir. Lakin bununla yanaşı nitq informasiyanın qeydə alınması və saxlanılması məqsədinə də xidmət edir (1, s. 22). Nitq bilavasitə təfəkkür ilə bağlı olduğu üçün psixologiya ilə də bağlıdır.

Təfəkkür insanın dili ilə psixologiyasının birləşdiyi bir nöqtədir. İnsan düşünəndə və danışanda onun bütün beyni fəaliyyətdə olur. Nitqin fizioloji əsasını beyinin təcrid olunmuş bir sahəsinin (nitq mərkəzləri) fəaliyyəti deyil, bütövlükdə beyin fəaliyyəti təşkil edir. Bu zaman nitq mərkəzi xüsusi fəaliyyətdə olmalıdır ki, səs siqnallarını təhlil edərək onu mənalandıra bilsin. Bu proses həm dinləmə, həm də danışma zamanı fəal surətdə davam edir. İnsanın danışıq zamanı hansı psixi prosesin təsiri altında olması həlledici rola malikdir. Belə ki, əgər o, müsbət emosiyaların təsiri altındadırsa, onda onun psixolinqvistik mexanizmləri açıq olur, nəticədə nitqi gözəl alınır. Əksinə, mənfi emosiyaların təsiri altında olduqda psixolinqvistik mexanizmləri sanki bağlanır. Bu zaman insan bildiyini də ifadə edə bilmir.

Nitqin formalaşıb kommunikativ funksiya daşımasında bir sıra fizioloji, psixoloji və ictimai amillər iştirak edir. Dilin nitqə çevrilməsi çox mürəkkəb bir proses olub, insanın sosial həyatla, onun fiziologiyası və psixologiyası ilə əlaqədardır. Bunların qarşılıqlı əlaqəsi əsasında nitq axını fəaliyyətə başlayır. Hiss üzvləri eşitmə, görmə orqanları, danışıq üzvləri, xüsusən səs aparatı və baş beyin normal inkişaf etməyibsə, dinləyib anlama, danışma, oxu və yazı formalarında mütləq qüsurlar meydana çıxacaqdır.

Əgər insan hər hansı bir dildə danışıb yazırsa, obyektiv və subyektiv tələbləri nəzərə alaraq onun bu dildən istifadə etmə üsulu nitq fəaliyyətini təşkil edir. Hər hansı bir dilin sistemini yalnız nitqdəki təzahürünə görə müəyyənləşdirmək olur. Nitq nəinki dili təzahür etdirir,

həm də onu inkişaf etdirir, formalaşdırır. Nitq dilin konkret ünsiyyət şəraitində realizə olunması, informasiyanın ötürülməsi və əldə edilməsidir. Nitqdə sözlərin mənasının köməyi ilə müvafiq məzmunu çatdırmaqla yanaşı danışdıqlarımıza öz emosional münasibətimizi da bildiririk.

Nitq vasitəsilə düşünmənin tədqiqi zamanı müəyyən edilmişdir ki, psixologiya və dilçilik elmi daima əməkdaşlıq edir. Bu əməkdaşlığın elmi şərhi ilk dəfə məhz V.Humboldtun əsərlərində müşahidə olunmağa başlanmışdır. Nitq vasitəsilə düşünmənin mahiyyətini şərh edərkən V.Humboldt bəzi fikirlər irəli sürmüşdür ki, həmin fikirlər psixologiyada L.Vıqotski, dilçilikdə isə A.Potebnya tərəfindən davam və inkişaf etdirilmişdir. V.Humboldt yazır: "Dil fikri formalaşdıran orqandır (Die Sprache ist das bildende Organ des Gedanken). İntellektual fəaliyyət tamamilə ruhidir, dərin daxilidir və müəyyən mənada izsiz yox olandır, nitqdə səsin köməyi ilə materiyalaşır və hiss orqanları vasitəsilə qəbul edilə bilir. Bu səbəbdən intellektual fəaliyyət və dil vəhdət təşkil edir. Subyektiv fəaliyyət təfəkkürdə obyekt yaradır. Təsəvvürlərin heç biri əvvəlcədən verilmiş əşyaların tam mənimsənilməsi deyil. Hiss orqanlarının fəaliyyəti ruhi fəaliyyətlərin daxili prosesləri ilə sintetik əlaqədə olmalıdır. Məhz bu əlaqə nəticəsində obyektə çevrilərək subyektiv qüvvəyə qarşı qoyulan təsəvvür yaranır və o da yenidən mənimsənilərək subyektə çevrilir. Bütün bunlar dilin yardımı ilə baş verir" (2, s. 32).

Azərbaycan dilinin müxtəlif inkişaf dövrlərində ünsiyyətin hansı şəraitdə (rəsmi, qeyri-rəsmi yerlərdə, bir nəfərlə və ya kollektivlə, savadlı və ya savadsızla, uşaqla və ya böyüklə, tanışla və ya yadla və b. ilə) baş verməsi onu (nitqi) şəraitə uyğun formalarda qurmaq, dil vasitələrindən məqsədəuyğun şəkildə istifadə edə bilmək tələbatından (ünsiyyətin məqsəd və şəraitə uyğunluğundan) dilin (nitqin) üslubları yaranmışdır. Üslubun yaranması və çoxlu üslubların meydana gəlməsi dilin inkişafı ilə bağlıdır. Bütün dil üslubları dilin inkişaf səviyyəsindən asılıdır. Üslub çox geniş anlayışdır. Bu gün artıq akademik üslub, arxaik üslub, dialoq üslubu, monoloq üslubu, janr üslubu, realist üslub, romantik üslub, funksional üslub, bədii üslub, elmi üslub və s. üslub növləri vardır ki, bunların hamısı dilin öz inkişafı və tarixi durumu ilə bağlıdır. Bundan əlavə, poetik üslub – ayrı-ayrı sənətkarların fərdi üslubu da vardır ki, onlar da bilavasitə dilin tarixi inkişafından asılıdır. Üslub anlayışının tarixi çox qədimdir. Hələ yunan dilçiliyində Aristotel insan nitqi və onun fəlsəfi problemlərindən danışarkən üslub məsələlərinə toxunurdu. Sonra romalılar üslub anlayışını nitqə tətbiq etdilər. Həm vunanları, həm də romalıları üslub məsələsində bir ümumi cəhət birləşdirirdi. O da hər iki ölkə alimlərinin üslub (stil) terminini ritorika, bəlağətli nitq, geniş mənada natiqlik sənəti kimi başa duşmələri idi.

Dil və nitq üslublarından bəhs edərkən bir cəhəti xüsusi vurğulamaq lazımdır ki, dilin funksional üslubları ilk növbədə ümumi-obyektiv xarakter daşıyır, bu dildə danışan ayrı-ayrı fərdlərin iradəsindən asılı olmayaraq bir potensial şəklində mövcud olur. Nitq üslubları isə fərdi subyektiv xarakter daşıyaraq müvafiq dil üslubunun danışanın dünyagörüşü, savadı, nitq qabiliyyəti, məqsədi, eyni zamanda nitq şəraiti və auditoriyanın xarakterinə uyğun realizə edilməsindən ibarət olur. Nitqin funksional üslublarından bəhs edərkən bir amili həmişə nəzərdə saxlamaq lazımdır ki, onlar məhz fərdi üslubun hüdudları çərçivəsində fəaliyyət göstərir və bu mənada obyektiv şəkildə mövcud olan müvafiq dil üslublarından fərqlənirlər. Nitqin üslub baxımından müvafiqliyi ayrı-ayrı nitq üslublarında uyğun ifadə formalarına (söz, söz birləşməsi, qrammatik kateqoriya, sintaktik quruluşlar və s.) və qanunauyğunluğa riayət olunmasını tələb edir. Bu tələbin gözlənilməməsi, məzmuna uyğun gəlməyən ifadə formasının işlədilməsi nitqin effektini və təsir gücünü azaldır (3, s. 83).

Liderologiya sahəsində tədqiqat aparan alimlər belə hesab edirlər ki, müxtəlif situasiyalar-

da qrup üzvləri lider kimi müxtəlif insanları irəli sürə bilər. Əgər bu insanın fərdi xüsusiyyətləri, onun göstərdiyi birgə fəaliyyət və qrupun digər üzvləri ilə ünsiyyəti həmin situasiyanın tələblərinə uyğundursa, onda bu vəziyyətdə o lider olur. Yaranmış situasiyadan asılı olaraq qrupun vəzifə və tələbləri dəyişdirildikdə lider başqası ola bilər. Onlar belə hesab edirlər ki, həqiqət bu iki mövqe arasında yerləşir və onların inteqrasiyasını nəzərdə tutur. Daha çox lider o insan olur ki, onda qrupun üzvləri tərəfindən qiymətləndirilən və insanlarla ünsiyyət zamanı şəxsiyyətlərarası münasibətləri qurmağı bacaran, başqalarının diqqətini özünə yönəldə bilən, müxtəlif təkliflər irəli sürməyi bacaran, tərəfdarlarının "dilində danışmağı" bacarmaq kimi xüsusiyyətlərə malik olan insanlar ola bilir. Lider bir qayda olaraq qrupun daim mərkəzində olur - ona bir başa müraciət etmək, onun nitqini eşitmək, onun danışıq tərzinə diqqət yetirmək olar və s. Beləliklə, liderin birbaşa təsiri altında təşkilatın üzvləri onunla ünsiyyətdə olurlar.

Məlum olduğu kimi, daim ünsiyyətdə olan insan, xüsusilə liderlik keyfiyyətlərinə malik olan, özünü fəal insan kimi təqdim edir. Yəni, yaxşı təsir bağışlamağa və xoşa gəlməyə çalışır. Bununla da, öz müsbət obrazını-üslubunu daxilən formalaşdırır. Üslub anlayışının mənasını dəqiqləşdirdikdə "üslub" sözünün ən sadə izahı "sima", "görünüş" – kimi izah olunur. "Üslub" dedikdə daha çox insanın müəyyən situasiyada hər hansı bir davranış və ünsiyyət tərzinin uyğunluğu nəzərdə tutulur. Rusiya tədqiqatçıların əksəriyyəti (A.S. Kovalçuk, V.M. Şepel) üslub anlayışının öyrənilməsinə söz birləşməsini daxil edirlər. Onların qeydlərinə görə "Üslub - insanların yaddaşında onların obrazları haqqında qalan bütöv bir təsəvvürdür". Beləliklə, onu üslubun xarici elementlərinin harmoniyası və uyğunluğu kimi başa düşmək olar.

Üslub istənilən insanın ictimai "Mən"ini qavrayan zaman digər insanların olmasını mütləq şəkildə nəzərdə tutur. Bizim "Mən"nin digər tərəflərindən fərqli olaraq bu sanki xarici "mən"dir: o bir növ insanın ətrafındakılara necə təsir bağışladığını müəyyənləşdirir (5, s. 56). Nə qədər insanlara xoşa gəlmək üçün səy göstərilirsə, bir o qədər də aydın şəkildə şəxsin intellektual, mədəni və ünsiyyətçilik qabiliyyətləri özünü büruzə verir. Xüsusilə də buna ünsiyyətə və liderliyə təbiətən meyllik qabiliyyəti də imkan yaradır. Üslub bütöv mürəkkəb bir sistemdir. Onun əsas komponentləri isə nitq, davranış, şəxsi keyfiyyətlər, xarici görünüş hesab olunur.

Tarixi qaynaqlardan məlumdur ki, lap qədim zamanlardan məzmunlu, obrazlı, aydın, yığcam, təsirli nitqə malik olan liderlər cəmiyyət tərəfindən həmişə yüksək qiymətləndirilmişdir. Bu günkü müasir lider "müsbət nitq üslubunu formalaşdırmaq" üçün müəyyən kommunikativ və danışıq qabiliyyətinə malik olmalıdır. Nitqin xüsusiyyətlərini öyrənən xarici və yerli tədqiqatçıların əsərlərində nitqin liderlik ilə bilavasitə əlaqəsi aşkar olunmuşdur. İlk növbədə, buraya nitqin sürətliliyi, linqvistik qabiliyyətlər, ünsiyyətçillik, həmsöhbətə maraqlı olma qabiliyyəti, nitqin ifadəliyinin aydın və orijinallığı, məlahətli səsə malik olma aid edilir. Bütövlükdə isə verbal qabiliyyətləri başqalarına təsir göstərə bilmək qabiliyyəti ilə əlaqələndirirlər. Liderologiya sahəsində aparılan tədqiqatların nəticələrə görə qədim zamanlardan natiqlik qabiliyyəti liderlərə aid edilirdi. Belə ki, liderlər verbal ünsiyyət vasitəsilə insanları inandırmaq bacarığı ilə yanaşı, həm də fikrini düzgün, aydın, məqsədəuyğun ifadə etməyi, onu cazibəli, təsirli, emosional bir formada verməyi, dinləyicinin qəlbinə, zehninə nüfuz edə biləcək inandırıcı dil vasitələrindən istifadə etməyi də bacarmalıdır.

Parlaq, kəskin, orijinal, ifadəli nitq dinləyicilərin hisslərinə təsir edir, onların marağını artırır, diqqətini cəlb edir, fikrin məzmununu yaxşı dərk etməyə kömək göstərir. Nitqin təsir qüvvəsini, mənasını dinləyicilərə daha yaxşı çatdırmaq üçün liderin davranışı da az rol oynamır. Lider nitqini şərh edərkən özünü elə aparmalıdır ki, onun nitqi ilə davranışı uyğun gəlsin. Liderin ən yüksək mədəniyyəti odur ki, o, həm özünə, həm də qarşıdakı dinləyicilərə böyük

hörmət göstərib nitqi başa düşdüyü şəkildə, öz sözləri ilə sadə, aydın, düzgün şəkildə şərh etsin. Belə olduqda, dinləyicilərlə öz arasında möhkəm bir əlaqə, bir növ, körpü yaradan lider auditoriyanı ələ alır və istədiyinə nail olur.

Mövzunun ideyasını dinləyicilərə təlqin edir. Liderin mədəniyyəti onun nitqi ilə ölçülür. Hər bir lider nitqi hazırlayıb şərh edərkən bir növ öz xarakterini yazıya köçürür. Liderin nitq üslubu ümumi üslubun əsasını və başlıca tərkib hissəsini təşkil edir. Belə ki, lider öz peşəkar səriştəsini nümayiş etdirmək məqsədilə öz üslubunu seçir və yaradır. Tədqiqatçılar iddia edirlər ki, insanın necə görsənməsi və danışması onun haqda yaranan təəssüratın 92 % ni təşkil edir (4, s. 78). Bu halda dil işarələr sistemi kimi "insanın ünsiyyət vasitəsi, düşüncəli fəaliyyət və şəxsiyyətin özünüdərkinin ifadəsi üsulu olaraq" qarşılıqlı fəaliyyətin başlıca vasitəsi hesab olunur. Şübhəsiz ki, verbal ünsiyyət prosesində qarşılıqlı əlaqə və qarşılıqlı təsirin xüsusiyyətlərinin düzgün seçilməsi liderin müsbət nitq üslubunun yaradılmasında həlledici rol oynayır. Bu gün uğurlu ünsiyyət üçün nitq mədəniyyətinin əsaslarına yiyələnmək olduqca vacibdir. Bu zaman nitq qabiliyyətinin olması, öz fikirlərini dəqiq ifadə edə bilmək və onları sadə dillə ifadə etmək nəzərdə tutulur. Şəxsiyyətin daxili keyfiyyətlərinin və xarici təzahürlərinin harmoniyası nitq üslubunun formalaşması üçün bünövrə hesab olunur. Ünsiyyət problemlərini həll etmək və nitq strategiyalarını müəyyənləşdirmək üçün lider müxtəlif elm sahələri tərəfindən yaradılan (fəlsəfə, üslub psixologiyası, liderologiya, İşgüzar ünsiyyət, nitq mədəniyyəti, ritorika, üslubiyyat, etika, estetika) bilik, bacarıq və vərdişlərə malik olmalıdır.

Nitq mədəniyyəti insanlara məxsus ümumi mədəniyyətin ən vacib və aparıcı tərkib hissələrindən biridir. Dilçilik nöqteyi-nəzərindən nitq mədəniyyəti, nitqin düzgünlüyü, yəni müasir ədəbi dilin normalarını bilməyi və ona möhkəm, həm də sərbəst yiyələnməyi nəzərdə tutur. O, nitqin üslubca gözəlliyini, yəni hazırda istifadə etdiyimiz üslublara əsaslanaraq, fikri ifadə edən dil vasitələrinin xüsusiyyətini nəzərə almalıdır. Bu anlayışa danışıq mədəniyyəti ilə yanaşı, yazı mədəniyyəti də daxildir. Belə yüksək keyfiyyətə yiyələnən şəxs cəmiyyətin ictimai həyatında, onun hər hansı bir sahəsində fəal və məhsuldar iştirak etmək imkanına malik olur. Xüsusən də, liderlərin nitq mədəniyyətinə yiyələnməsi vacib sayılır. Nitq mədəniyyəti – nitqin ədəbi dil normalarına uyğunluğu, dilin ifadə vasitə və imkanlarından nitqin məqsəd və məzmununa müvafiq surətdə istifadə etmək bacarığı; dil səviyyələrinin və onlara daxil olan vahidlər sisteminin formalaşdırılması, təkmilləşdirilməsi problemlərini, dil hadisə və proseslərinin inkişaf xəttini, üslubiyyat məsələlərini araşdıran dilçilik bəhsidir (3, s. 98).

Nitq mədəniyyətinin normativ aspektləri ilə yanaşı (orfoepik sözdüzəldici, leksika, sintaksis, intonasiya, morfoloji) həmçinin kommunikativ keyfiyyətlərinə riayət edilməsi vacibdir. Mədəni nitqə yiyələnməkdə təkcə ədəbi dilin normalarına riayət etmək kifayət deyildir, belə bir keyfiyyətin yaranması üçün dilin üslub normalarını, çalarlarını da gözləmək lazımdır. İlk növbədə lider özünün müsbət nitq üslubunun formalaşdırması üçün nitqin göstərilən əsas kommunikativ keyfiyyətlərini bilməlidir: nitqin dəqiqliyi (fikrin ifadəsi üçün birbaşa tələb olunan söz və ya ifadənin seçilməsi); nitqin anlaşıqlığı (nitqin səlis, aydın olması, yersiz ibarələrlə yüklənməməsi, dilin qrammatik qayda və qanunlarına uyğun olması); nitqin aydınlığı (dinləyici və oxucunun nitqi asanlıqla anlaması, başa düşməsi); nitqin zənginliyi (nitqdə işlənən dil ünsürlərinin müxtəlifliyi, rəngarəngliyi və çoxluğu); nitqin düzgünlüyü (həm yazılı, həm də şifahi nitqdə qrammatik qaydalara əməl etmək); nitqin orijinallığı (nitqdə özünəməxsusluqdur, bir şəxsin başqalarından fərqli danışması və yazması). Bütün bu sadalanan keyfiyyətlər liderin qrup üzvləri ilə asan ünsiyyət qurmasın da mühüm rol oynayır.

Qrupda insanlar arasında ünsiyyət mürəkkəb sosial-psixoloji prosesi hesab olunur. Buna görə, məqsədlərindən asılı olaraq liderlər qrupda ünsiyyətin növlərinin və üsullarının seçi-

mində auditoriyanın bəzi xüsusiyytlərini - qərarların kəskinliyini, güzəştə getməməyi, avtoritetlərin tanınmaması kimi xüsusiyytlərini nəzərə almalıdırlar. Auditoriyanın deyilənləri qəbul etməsi üçün dinləyicilərlə fərdi əlaqə qurmaq lazımdır. Şübhəsiz ki, həmsöhbətlərlə münasibətləri xeyirxah, hörmətli və diqqətli tərzdə olan qrup lideri, bir qayda olaraq, qrupda qarşılıqlı cavab hissləri doğurur. Bu zaman isə qrup üzvləri birgə söhbətə və düşüncələrə səbəb olan etimadlı ünsiyyət və rahat danışıq tərzinə də biganə qalmırlar. Qrup üzvləri ilə ünsiyyət zamanı əsas diqqət liderin danışıq tərzinə yönəlir. İnandırma, emosionallıq və ifadə edə bilmək bacarığı ilə lider yalnız dinləyiciləri diqqətdə saxlamağı deyil, həm də aparılan söhbətin predmetinə öz münasibəti ilə sirayət etməyi bacarır.

Beləliklə, lider verbal və qeyri-verbal ünsiyyət vasitələrindən düzgün istifadə etdikdə və həmin ünsiyyət vasitələrini nəzərdə tutulan kommunikativ məqsədlərə uyğun olaraq öz nitq praktikasında həyata keçirdikdə özünü nitq mədəniyyətini təkmilləşdirir. Bu isə öz növbəsində liderin müsbət nitq üslubunun formalaşmasında əsas üsullardan biri hesab olunur və ünsiyyət məqsədlərinə nail olmağa kömək edir.

**Mövzunun aktuallığı.** Məqalə müasir elmin aktual və mühüm fenomenlərindən birinə - qruplardakı liderin nitq üslubuna həsr olunub. Üslubun modelləşdirilməsi probleminin əsas yanaşmaları fərqləndirilən məqalədə liderlik nəzəriyyələri, nitq mədəniyyəti və texnikası, ünsiyyət mədəniyyəti üzrə biliklər, bacarıq və vərdişlər kompleksinin liderlərin obyektiv nitq portretinin yaradılması üçün zəruri olduğunu göstərilir.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatın nəticələri: müasir gənclərin nitq üslubunun və onun liderlik keyfiyyətlərinin formalaşması prosesi haqqında elmi təsəvvürləri genişləndirir, nitqə qarşılıqlı təsir və sosial adaptasiya qabiliyyətinin inkişafına və təkmilləşdirilməsinə, ünsiyyət vəzifələrinə uyğun davranışların modelləşdirilməsinə kömək edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri danışıq mədəniyyəti üzrə tədris vəsaitlərinin yaradılması üçün işgüzar ritorika, ünsiyyət mədəniyyəti üzrə kurs proqramlarının hazırlanmasında istifadə imkanlarını açır.

## Ədəbiyyat

1. Məhərrəmov, M. Psixologiya / M. Məhərrəmov. -Bakı, – 1968.

2. Mayıl, B. Linqvopsixologiya və ya dilin psixologiyası / B. Mayıl, B. Əsgərov. –Bakı, – 2011.

3. Abdullayev, N. Nitq mədəniyyətinin əsasları / N. Abdullayev. – Bakı, – 2013.

4. Бороздина, Г.В. Психология делового общения. Учеб. пособ. / Г.В. Бороздина. – Москва, -2001.

5. Ковальчук, А.С. Основы имеджелогии и делового общения: Учеб.пособ. для студ. Вузов / А.С. Ковальчук. – Ростов н/Д., -2007.

**Т.Р. Мусаева**

## Психолингвистические аспекты формирования речевого имиджа лидера

### Резюме

Имидж является сложной целостной системой, которую лидер для себя выбирает, создает и поддерживает, демонстрируя свою профессиональную компетентность. Речевой имидж лидера служит основой и главным составляющим общего имиджа. Лидер, который в процессе речевого общения с группой осуществляет сознательный отбор и употребление языковых средств, формирует умение использования их в речевой практике лидерства в соответствии с поставленными коммуникативными задачами, совершенствует общую культуру речи.

**T.R. Musayeva**

## Psycholinguistic aspects of formation of speech Style of the leader

### Summary

Image is difficult complete system which the leader for himself chooses, creates and supports, showing the professional competence. Speech image of the leader forms a basis and to the main components of general image. The leader who in the course of speech communication with group performs conscious selection and the use of language means creates ability of use them in speech practice of leadership according to the set communicative tasks, enhances the general standard of speech.

**Redaksiyaya daxil olub:** 13.07.2021